UOT 94

ÜLFƏR MƏMMƏDLİ
Bakı Dövlət Universitetinin
Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi
kafedrasının doktorantı
Ulfermemmed@gmail.com

YUQOSLAVİYANIN DAĞILMASINDAN SONRA BALKANLARDA BÖYÜK GÜCLƏRİN SİYASƏTİ

DOI: https://doi.org/10.36719/2708-065X/105/187-192

Soyuq müharibədən sonra Yuqoslaviya Federativ Respublikasının dağılması ilə Balkanlarda hakimiyyət boşluğu yarandı. Etnik cəhətdən fərqliliklə diqqət çəkən Balkan coğrafiyasının bir baxımdan zənginlik olaraq görülə bilən bu xüsusiyyəti bu gün regiondakı problemlərin əsas qaynağıdır. Balkanların yeni dövrdə böhranlarla dolu bir həyata girməsi mübahisələrə səbəb oldu və təsir üçün açıq bir coğrafiyaya çevirdi. Keçmişdən bəri daima böyük güclərin əsarəti altına almaq istədiyi bu bölgədə güc boşluğunu doldurmaq üçün bir çox güc ön plana çıxdı və siyasətlərini bu bölgəyə uyğun həyata keçirməyə başladılar. Başda Türkiyə olmaqla Rusiya, ABŞ Çin və.s kimi güclər siyasi, hərbi, iqtisadi, mədəni siyasətləri ilə bölgə də nüfuz sahibi olmağa çalışmış və bir-biriləri ilə rəqabətdə olmuşdurlar. Bu kontekstdə çalışmamızın əsas məqsədi böyük güclərin Balkanlardakı siyasətini təhlil etməkdir.

Açar sözlər. Balkanlar, böyük güclər, strateji bölgə, duel meydanı, etnik qarşıdurmalar.

Giriş. Dünya siyasi xəritəsində Balkan adlanan coğrafiya qitələri birləşdirən strateji yollar üzərində olmaqla yanaşı, həm böyük, həm də münbit torpaqları ilə tarix boyunca böyük güclərin mübarizəsinə şahid olmuş, bölgə Roma imperatorluğu, Osmanlı dövləti və Yuqoslaviya kimi dövlətlərin tərkibində olmuşdur.

Tarix boyu Şərqlə Qərb arasında sərhəd olma xüsusiyyəti Balkanlara fərqli millətlər tərəfindən üstünlük verilməsinə və bu vəziyyətin nəticəsində bölgədə birlikdə yaşayan və bir-birinə qarışan çoxmillətli bir quruluşun ortaya çıxmasına səbəb olmuşdur. Bu vəziyyət bir tərəfdən Balkanların dəyərini ortaya qoyursa, digər tərəfdən üsyanların, etnik münaqişələrin əsas səbəbi oldu. Bu müharibələrin ən kuliminasiya nöqtəsi 1990-cı illərdə Yuqoslaviyanın parçalanması ilə müsəlman bosniyalıların və kosovalıların, pravoslav serblərin və katolik xorvatların iştirak etdiyi qanlı münaqişələrdir. Bundan istifadə edən böyük və regional güclər Balkanlarda söz sahibi olmağa çalışmış və bu istiqamətdə xarici siyasətlərini müəyyənləşdirmişlər. Təsadüfi deyildir ki, Brzezinski Böyük "Şahmat taxtası" əsərində "Avropada Balkanlar sözü etnik ziddiyyətləri və böyük dövlətlərin regional mübarizəsini xatırladır" [17, s.187] kimi qeyd etmişdir. Hətta bəzi əsərlərdə Balkanları "duel meydanı" [6, s.15] kimi də təqdim etmişdirlər. Bugünkü siyasi tarixdə "balkanlaşma" kimi ifadə edilən məna hərfi mənada qeyri-sabitlik mənasına gəlir. Yəni, XXI əsrin "axilles dabanı" nın Balkanlar olduğunu deyə bilərik.

Ümumən, Soyuq müharibə başa çatdıqdan sonra ikiqütblü quruluş özünü çoxqütblü quruluşla dəyişdi. Bununla da bizə aydın oldu ki, qaynar bölgələrdə artıq bir güc deyil bir neçə güc mübarizə aparacaqdır. Qonşuluqda olan bölgələrdə öz təhlükəsizliyinə təhdid olaraq belə bölgələri gördükləri üçün siyasətlərini bu istiqamətdə təyin edəcəkdilər. Buna ən böyük nümunə Türkiyədir.

Ona görə də demək olar ki, yeni dünya düzənində Balkanlar Rusiya, Avropa və Amerikanın maraqlarının "Duel meydanı" olacaq və dövlətlər öz "milli maraqlarına" əsasən siyasətlərini formalaşdıracaqlar. Xarici siyasətdə həlledici olan "milli maraq", Donald Noyxterleynin tərifinə görə, "suveren dövlətin xarici mühitini təşkil edən digər suveren dövlətlərə münasibətdə dərk edilən ehtiyac və istəklərdir"[5, s.356] Bu kontekstdə böyük güclərin Balkan siyasətinə nəzər yetirək.

Rusiya. Balkanları Rusiya üçün əhəmiyyətli edən "Boğazlara sahib olma", "Slavyan həmrəyliyi"ni quraraq özünə dəstək yaratmaq , böyük güclərə qarşı çıxmaq cəhdi və geostrateji maraqlardır. Bu maraqlara sahib olmaq üçün bölgə də baş verən qarışıqlıqlar Rusiya üçün faydalıdır. Çünki, Rusi-

ya Qərbi Balkanlara Qərb dövlətləri ilə strateji rəqabət sahəsi kimi yanaşır. Doğrudur, 1990-cı illərdə Sovet İttifaqının dağılmasından sonra gücünü itirən Rusiya üçün Balkanlar "İkinci dərəcəli ərazi" sırasına gerilədi. Bu o demək deyil ki, Rusiya Balkanları və onların geosiyasi əhəmiyyətini unutdu. Balkanlarda rus doktrinası adlandırıla bilən doktrina sənədlərində region öz yerini tapdı. 1993-cü il RF-nin xarici siyasət konsepsiyasında, 2000-ci il sənədində Balkanlar bağlı siyasətlər qeyd olunur. Digər doktrina sənədi Primakov adlanan sənəddir. O, Rusiya Federasiyasının çoxqütblü dünyada güclərdən biri kimi mövqeyini müəyyən edir, onun əsas marağı Avro-Asiya regionunda və Balkanlarda fəal şəkildə təsirini saxlamaqdır[2, s.51-52]. Göründüyü kimi, Rusiya 90 ci illərdə ağır günlər keçirməsinə baxmayaraq ilə Balkanlarla bağlı siyasətlər müəyyənləşdirmişdir.

Soyuq müharibə dövründən sonra yeni qüvvələr balansından xəbərdar olan rusiyalı geopolitik Nartov Rusiyanın Balkan regionu üçün geostrategiyasının əsas məqsədlərini Rusiyanın Belqrad, Sarayevo və Sofiyada diplomatik təcrid olunmasının qarşısının alınması;Qərbin Balkan dövlətlərinin, xüsusilə slavyan dövlətlərinin daxili siyasətinə müdaxiləsinin qarşısını almaq; Balkan xalqlarının taleyinin NATO deyil, Birləşmiş Millətlər tərəfindən həll edilməsi uğrunda mübarizə aparmaq kimi müəyyənləşdirdi [18, s.230-231]. Buradan da aydın olur ki, Rusiya bölgə də digər qüvvələrin olmasına qarşı siyasət yürüdür. Bu da boş yerə deyildi. Belə ki, qlobal sistemin dominant aktoru sayılan ABŞ və AB-nin əməkdaşlığı ilə Balkanlarda Rusiyaya qarşı mübarizə aparır. Bu kontekstdə Vaşinqtonun Balkanlarda prioritetinin Rusiyanın təsirini qırmaq olduğu ifadə edilə bilər. Bu qüvvələr Rusiya-Ukrayna savaşı başlamasından istifadə edərək, Rusiyaya təzyiqlər göstərib bölgədən təcrid etməyə çalışırdılar. Təsadüfi deyildir ki, Rusiyanın Ukraynaya savaş elan etdikdən sonra hətta bəzi siyasətçilər qeyd etmişdir ki, Rusiya Balkanlara da savaş açа bilər. Balkan ölkələridə öz növbəsində bundan təsirlənmişdilər.

ABŞ. ABŞ həm 1990-cı illərdəki münaqişələr zamanı Balkanlardakı böhranlara gec reaksiya vermişdir. Bunun bir neçə səbəbləri var idi.

Yuqoslaviyanın dağılması ilə başlayan Balkan böhranı ABŞ-ın Körfəz böhranı ilə başı qarışdığı illərdə ortaya çıxdı. Üstəlik, Balkanlarda böhran başlayanda Vaşinqton məsələnin Avropanın problemi olduğunu bəyan edərək, hadisələrin gedişatını Avropa İttifaqının təşəbbüsünə buraxdı. ABŞ-ın regionda baş verən proseslərə passiv münasibət göstərməsinə təsir edən amillərdən biri də Vaşinqtonun diqqətini SSRİ-dən qalan nüvə silahlarına yönəltməsi oldu. ABŞ-ın daxili siyasətində prezident seçkilərinin keçilməsi də Vaşinqtonun regiona birbaşa müdaxiləsinə təsir edib. Corc H. Buş 1992-ci ilin noyabrında keçiriləcək seçkilərdən əvvəl yenidən seçilmək imkanını düşündüyü üçün Amerika əsgərlərini bölgəyə göndərməklə səs itkisinə səbəb olmaq istəmədi [10, s.203-221]. Lakin 1993-cü ilin yanvarında seçki kampaniyasında məşğul olacağı xarici problemlər sırasına Bosniya böhranını da daxil edən Bill Klinton seçkiləri qazanaraq vəzifəyə gəldikdən sonra ABŞ-ın Balkan siyasəti güclənməyə başladı. Bu illərdən sonra ABŞ regionda daha fəal rol almağa başladı.

ABŞ-ın Balkanlarla bağlı strategiyasını 6 başlıq altında ümumiləşdirmək olar:

1) Rusiyanın Balkanlardakı təsirini məhdudlaşdırmaq və hətta son qoymaqdır.

2) Bölgədə ABŞ-yönlü hakimiyyətlərin yaradılması və regional hökumətlərin siyasi oriyentasiyasının onun istəklərinə uyğun işləməsini təmin etmək üçün tədbirlər görmək.

3) ABŞ Balkanların öz nəzarəti altında formalaşmasını istəyir və özünü istisna edəcək müstəqillik cəhdlərinə, müttəfiqi Aİ-nin regionla bağlı müstəqil siyasət qurmaq cəhdlərinə qarşı çıxır. Bu, digər güclərin bölgədə qəti siyasi nəzarət əldə etməsinə mane olmaq, həmçinin region ölkələrinin inkişaf etdirəcəyi müstəqil regional inteqrasiya təşəbbüsünü əngəlləməkdir.

4) Aİ-nin şərqə doğru genişlənməsinə dəstək verməklə, Soyuq Müharibə dövründə qurulan Avroatlantik ittifaq çərçivəsində Aİ-yə dəstəyin davam etdiyini göstərmək və beləliklə, Avropanın ABŞ-dan müstəqil hərəkət etməsini istəyənlərə mesaj verə bilir.

5) ABŞ Mərkəzi Asiya-Xəzər və Yaxın Şərq bölgələrindəki enerji ehtiyatlarının Avropaya ötürülməsi baxımından Rusiya ərazisindən kənarda ən mühüm şərq-qərb marşrutu olan Balkanlar bölgəsini nəzarətdə saxlamaq və bu əhəmiyyətli tranzit yolunu itirməmək üçün müxtəlif siyasət və layihələr həyata keçirir.

6) ABŞ-ın region ilə bağlı digər siyasəti Qara dəniz hövzəsi ilə bağlıdır. Balkanlar bölgəsi Qara dəniz hövzəsinin qərbində yerləşir və onun siyasi və iqtisadi gələcəyində çox əhəmiyyətli bir yerə sahib olduğu ifadə edilir. ABŞ Qara dəniz hövzəsinə daxil olmaq istəyir [12, s.75].

Deyilənlərdən aydın olur ki, ABŞ bir tərəfdən Rusiyaya təsir göstərir; digər tərəfdən, Qərbə yaxın dövlətlərlə münasibətlərini yaxşılaşdırır və bununla da Balkanlarda təsirini gücləndirməyə çalışır.

Avropa ittifaqı. Soyuq müharibə bitdikdən sonra Balkanlar Qərb üçün enerji baxımından vacib bir bölgəyə çevrildi. Bu vəziyyət Balkanların Aİ üçün əhəmiyyətli bir bölgəyə çevrilməsinə səbəb olsa da, onun güc mübarizələrinin getdiyi bir bölgəyə çevrilməsi baxımından da əhəmiyyətli idi. Aİ daima Balkanların "Rusiyaya doğru siyasəti" və "Çinin iqtisadi təsiri" altına düşəcəyi qorxusu var deyə balkanlarla əlaqəli siyasətində ehtiyatlı davranır.

Aİ daxilində müzakirələr və fikir ayrılıqları olsa da, bu dövrdə Balkan siyasətini üç təməl üzərində qurub.

1) Balkanlarda münaqişələrin, müharibələrin və terrorizmin Aİ-nin siyasi dərinləşməsi prosesinə zərərinin qarşısını almaq.

2) Balkan ölkələri üzərində iqtisadi, siyasi və ideoloji hegemonluğun qurulması

3) Balkan ölkələrini müəyyən tarixi qaydada tədricən Aİ-yə daxil etmək [3]

Bütün bu siyasətlərlə yanaşı Aİ Balkanların öz daxili münaqişələrini Birliyə gətirəcəyindən və Balkan ölkələrində qanunun aliliyi (məhkəmə və medianın müstəqilliyi, korrupsiya ilə mübarizə) ilə bağlı problemlərin həll oluna bilməməsindən narahatdır. Hər nə qədər Balkanlarla siyasəti formalaşdırmağa çalışsa da, bu qorxu onu müəyyən yerlərdə addım atmağa imkan vermir.

Təsadüfi deyildir ki, Avropa dövlətlərinin "Balkan" anlayışı mümkün qədər mənfi və "başqası" kimi qəbul edilərək, "üstün Qərb dəyərlərinə" tamamilə zidd olduğu iddia edilirdi [13, s.32]. Həmçinin, Aİ rəsmiləri Balkanlar üçün "Avropanın qara dəliyi" ifadəsini də işlədirdilər [7, s. 500-501]. Bu deyimlərdən də aydın olur ki, Avropa Balkanlarla siyasətinə özünün maraqları istiqamətində daim diqqət edib və edəcəkdir.

Türkiyə. Bölgədə tarixi keçmişi olan Türkiyə coğrafi və mədəni baxımdan Balkan ölkəsidir. Türkiyə üçün bu coğrafiya Qərbə açılan qapıdır. Digər tərəfdən Balkanlar bölgədə türk və müsəlman icmalarının varlığı baxımından Türkiyə üçün önəmlidir. Həmçinin, Balkanlardakı münaqişələr Türkiyənin təhlükəsizliyinə birbaşa təhdid olmaları baxımından dövlətin xarici siyasətinin mühüm istiqamətlərindən biridir.

Dünya sosialist sisteminin çökməsi prosesində Yuqoslaviyanın dağılması, Bosniya müharibəsi kimi hadisələr Türkiyənin Balkanlarda sabitliyi və sülhü dəstəkləmək üçün göstərdiyi səylərlə nəticələnmişdir. Türkiyənin Balkanlarla bağlı bu xarici siyasəti müxtəlif ittihamlara səbəb olub. Məsələn, Hantinqtonun fikrincə, Türkiyə keçmişdə oynadığı rolu, Balkan müsəlmanlarının himayəçisi rolunu bərpa edib [15, s.176]. Bu baxış Qərbin Türkiyəyə qarşı çıxmasına səbəb oldu. Bundan əlavə, Balkan xalqları tərəfindən Balkan ölkələrini Aİ-dən uzaqlaşdırmaq iddiası çərçivəsində Türkiyənin Rusiya ilə eyni kateqoriyada göstərilməsi də Rusiyanın dünyada sabitliyi pozan aktor kimi qiymətləndirildiyi nəzərə alınaraq Türkiyəyə mənfi təsir göstərir. Amma biz nəzərə almalıyıq ki, Soyuq Müharibədən sonrakı dövrdə üç tərəfdən qarşıdurma zonalarının yaranması Türkiyə üçün həyat və varlıq məsələsi kimi ortaya çıxıb. Çünki bu qarşıdurmalar "kəpənək effekti" ilə zamanla var olma səylərini poza bilərdi.

XXI əsrin əvvəllərində Türkiyənin yeni xarici siyasət kursuna keçməsi ilə Balkanlarda siyasəti daha da aktivləşmiş oldu. Bu illərdə, müəyyən istisnalar olmaqla, ümumilikdə xarici siyasətində yumşaq gücdən istifadəyə üstünlük verən Türkiyə Balkan dövlətləri ilə münasibətlərdə siyasətdən iqtisadiyyata, mədəniyyətdən hərbi əməkdaşlığa qədər bütün istiqamətlərdə çoxtərəfli əlaqələrin qurulması və inkişafına çalışılır. Bu gün Türkiyə Balkanlarla bağlı siyasətini dörd əsas istiqamət üzərində qurub: "yüksək səviyyəli siyasi dialoq, hamı üçün təhlükəsizlik, maksimum iqtisadi inteqrasiya və regionda çoxmillətli, çoxmədəniyyətli, çoxdinli cəmiyyətlərin mühafizəsidir. Türkiyə Balkan ölkələri ilə əməkdaşlığı gücləndirmək və hərtərəfli regional əlaqələrin qurulmasına çalışır [16]. Digər tərəfdən, Türkiyə xarici siyasəti, milli maraqları çərçivəsində inkişaf etdirilən digər regional siyasətlərdə olduğu kimi, Balkanlardakı həssaslıqlara diqqət yetirir və bölgənin çoxrəngli, mozaik quruluşunu hər

zaman nəzərə alır. Bölgədəki problemlərin mürəkkəb quruluşu və bu problemlərin "Domino daşı" nəzəriyyəsində olduğu kimi [8, s.4] çox qısa zamanda yayılma ehtimalı Türkiyənin xarici siyasət qərarlarını daha həssas davranmağa məcbur edir.

Çin. Soyuq müharibə dövründən sonra Mərkəzi və Şərqi Avropa ölkələri ilə yaxşı münasibətlər quran Çin, minilliyin əvvəli ilə iqtisadi yönümlü əlaqələri inkişafa çalışdı. Çinin Balkanlara doğru ilk ciddi cəhdləri 2011-ci ildə Şərqi Avropa turu ilə başladı. Səfərdən sonra Çinlə Balkanlar arasında keçirilməsi nəzərdə tutulan zirvə görüşlərinin təməli qoyuldu. Bu görüşlərin ən mühümlərindən biri 2012-ci ildə Varşavada keçirilmişdir. Çin ilə Mərkəzi və Şərqi Avropa ölkələrini bir araya gətirən bu toplantıda "Çinin Mərkəzi və Şərqi Avropa ölkələri ilə dostluq əməkdaşlığını təşviq etmək üçün on iki tədbiri" adlı bəyannamə təqdim edilib və "16+1 Platforması" yaradılıb. Platformanın məqsədi Çin ilə on altı Mərkəzi və Şərqi Avropa ölkəsi arasında iqtisadi, mədəni və sosial əməkdaşlığı inkişaf etdirməkdir. Sonrakı illərdə "17+1 modeli" oldu [14, s.78].

Bundan bir il sonra Müasir İpək Yolu layihəsi kimi də tanınan "bir kəmər bir yol" layihəsi, 2013-cü ilin sentyabrında elan edilmişdi. "Bir kəmər bir yol" layihəsi 17+1 platformasının üzv ölkələrinin inkişafına təsir edəcək qədər geniş olmuşdur. Həm 17+1 üzvləri, həm də bəzi Aİ dövlətləri tərəfindən dəstəklənən bu strateji təşəbbüs coğrafi mövqeyinə görə Asiyanı Avropa ilə birləşdirməyi hədəfləyirdi [11, s.3]

17+1 modeli və bir kəmər bir yol layihəsi ilə region ölkələri ilə ikitərəfli münasibətlərində Çin davamlılığa nail olmuşdur. Hətta layihə gedişində balkan ölkələrinin Çinə borcuda yaranmışdır. Bunu Çinin istifadə etdiyi "borc tələsi" strategiyasıda adlandırmaq olar. Elə buna görə də, Aİ Çinin Balkan ölkələrinə təsirini tarazlaya bilməyəcəyini düşünür və uzunmüddətli borclar nəticəsində bu ölkələrin suverenliyinin təhlükə altına düşə biləcəyindən narahatdır.

Çinin Balkanlarda mövcudluğunun digər elementi 5G şəbəkəsinin qurulmasıdır; Şimali Makedoniya, Bosniya və Herseqovina, Serbiya və Kosovo Çin tərəfindən 5G infrastrukturunun inkişafını təsdiqləsə də, Serbiya Çinli Huawei-ni əsas tərəfdaşları kimi qəbul edib [9]. Çin Balkanlarda rolunu artırmaq üçün addımlar atsa da, geosiyasi rəqabətin güclənməsi regionda irəliləyişi müəyyən məqamlarda əngəlləyə bilir. Ümumilikdə Balkanlarda Çin ilə bağlı 136 layihə müəyyən edilmişdir [4].

Nəticə. Dövlətin xarici siyasətini araşdırarkən diqqətdən kənarda qalmamalı olan mühüm anlayış "milli maraq"dır. Dövlətlər öz xarici siyasətini milli maraqlarına uyğun həyata keçirirlər. Haqqında danışdığımız böyük güclərdə Balkanlarla bağlı siyasətlərini bu istiqamətdə qurmuşlar.

Balkanların qlobal güclərin rəqabət zonalarından biri olması Balkanlardakı etnik milliyətçilik problemin başlıca mənbəyidir. Strateji maraqları ucbatından region ölkələrində tez-tez böhranların başlamasına səbəb olan bu aktyorlar daha sonra xilaskar rolunda meydana çıxıb, problemlərin aradan qaldırılmasında öncül olmağa çalışırlar. Daima bölgədə aktiv siyasət yürütməyə çalışan ABŞ, Aİ Rusiya, Çin, Türkiyə kimi aktyorlar regionda bir-biri ilə rəqabətdə olduğu üçün biri digərinin bölgəyə təsirini azaltmağa çalışırlar. Son 30 ili araşdırdığımızda görürük ki, Balkanlar ABŞ üçün istər tranzit yollarında olması, istərsə də Avropa, Rusiya və Türkiyənin xarici siyasətlərinə nəzarət baxımından önəmlidir. Rusiyanın isə Slavyan həmrəyliyi" yaratmağa çalşdığı Balkanlarda digər güclərin təsir dairələrinin məhdudlaşdırılması prioritet məsələdir. Aİ daxilində Qərbi Balkan ölkələrinə münasibətdə yaxşı qonşuluqla yanaşı qərarsızlıq görünür. Avropa üçün bu region həm təhlükəsizlik problemləri, həm də Rusiya və Türkiyə kimi ölkələrin təsir dairəsinin məhdudlaşdırılması baxımından əhəmiyyətlidir. Çin məhsullarının Avropa bazarlarına çıxması üçün başlatdığı Yeni İpək Yolu layihəsi çərçivəsində Balkan ölkələrinə investisiyalara diqqət yetirir. Türkiyənin bölgə ilə əlaqələri mədəni və tarixi baxımdan formalaşmışdır. Həmçinin, Türkiyə də Çin kimi iqtisadi sahələrdə sərmayə qoyaraq fəaliyyət göstərir və bölgədəki, problemlərin aradan qaldırılmasına çalışır. Çünki, problemlərin aradan qaldırılmasında bölgənin əksər cəmiyyətləri ilə din, mədəniyyət və ya əcdad baxımından ortaq məxrəcə malik ikinci bir aktor yoxdur. Həmçinin, bölgədə baş verən hər hansı bir münaqişə bir başa Türkiyənin təhlükəsizliyinə təhdiddir. Bunu da bilirik ki, Türkiyəyə təhdid üçün böyük dövlətlər Balkanlarda münaqişə yarada bilirlər.

ƏDƏBİYYAT

1. Ahmet Davutoğlu. Stratejik Derinlik, Türkiye'nin Uluslararası Konumu, İstanbul, Küre yayınları, 2001, 584 s.

2. Boguslaw Jagiello The Balkan Kettle: Russia's policy towards the Balkans // Security and Defence Quarterly, 35(3), 2021, p.47-61. URL: https://securityanddefence.pl/The-Balkan-Kettle-Russia-s-policy-toward-the-Balkans,138674,0,2.html [25.04.2024].
3.Caner Sancaktar, "Avrupa Birliği ve Balkanlar" // Türk Asya Stratejik Araştırmalar Merkezi, 14 Haziran 2006. URL: https://tasam.org/trTR/Icerik/400/avrupa_birligi_ve_balkanlar [25.04.2024].
4. China in the Balkans. URL: https://china.balkaninsight.com/ [25.04.2024].
5. Faruk Sönmezoğlu, Uluslararası politika ve dış politika analizi, 7 Baskı, İstanbul, Der Yayınları, 2019, 1056 s.
6. Georges Castellan, Balkanların Tarihi 14.-20. Yüzyıl Çev: Ayşegül Yaraman Başbuğu, İstanbul, Milliyet yayınları, 1995, 520 s.
7. Hasret Çomak, Caner Sancaktar (ed.), 21. Yüzyılda BM, NATO, AB ve AGİT' in Balkanlar'daki Güvenlik Yaklaşımı: Güvenlik Yönetişimi / Uluslararası Balkan Kongresi Bildiriler Kitabı, 28-29 Nisan 2011. Kocaeli Üniversitesi Yayınları, Kocaeli, s.500-520.
8. Hüseyin Emiroğlu Soğuk savaş sonrası Kosova sorunu 1989-2000, Asil Yayın, Ankara, 2010, 405 s.
9. Marcin Przychodniak, "The Importance of the Western Balkans in China's Foreign Policy" *June* 2020. URL:
https://pism.pl/publications/The_Importance_of_the_Western_Balkans__in_Chinas_Foreign_Policy [25.04.2024].
10. Matthew A BAUM. "How Public Opinion Constrains the Use of Force: The Case of Operation Restore Hope" // Presidential Studies Quarterly, 34/2, 2004, pp.187-226.
11. Michael Baltensperger and Uri Dadush. The Belt and road turns five // Policy Contribution, Issue n 1 ,January 2019. P.1-15.
12. Muaz Kazaz, "NATO'nun Balkanlar üzerindeki Rolü" // Akademik Bakış Dergisi, Sayı: 72, MartNisan, 2019 ss.69-89.
13. Pavlos Hatzopulos, "All that is, is Nationalist; Western Imaginings of the Balkan Since the Yugoslav Wars" // Journal of Southern Europe and the Balkans, Vol.5, No.1, 2003, pp.26-37.
14. Shaohua Yan, The '16+1' framework and China-EU cooperation in the western Balkans. A region building perspective // Australian and New Zealand Journal of European Studies, 2019, 11(1), 76-88.
15. Samuel P Huntington. (2015). Medeniyetler çatışması ve dünya düzeninin yeniden kurulması, Çev. Mehmet Turhan, Y. Z. Cem Soydemir, Okyanus, 14. Basım, İstanbul, 544s
16. Türkiye Cümhuriyyeti dış işleri bakanlığı, Balkan ülkeleri ile ilişkiler - https://www.mfa.gov.tr/balkanlar_ile-iliskiler.tr.mfa [25.04.2024].
17. Zbiqnev Bjezinski, Böyük Şahmat taxtası, Tər.Yaşad Əsədov Bakı, Qanun nəşriyyatı, 2020, 328s
18. Нартов Н.А., Староверов В.И. Видавницкое литературное политическое единство, Москва, 2004, 544 с.

УЛЬФАР МАМЕДЛИ
Докторант кафедры новой и новейшей истории стран Европы и Америки Бакинского государственного университета

ПОЛИТИКА ВЕЛИКИХ ДЕРЖАВ НА БАЛКАНАХ ПОСЛЕ РАСПАДА ЮГОСЛАВИИ

После Холодной войны распад Союзной Республики Югославии создал вакуум власти на Балканах. Эта особенность балканской географии, отличающаяся этническим разнообразием, которое с одной точки зрения можно рассматривать как богатство, сегодня является основным источником проблем в регионе. Переход Балкан к жизни, полной кризисов, в новую эпоху вызвал противоречия и сделал географию открытой для влияния. Многие игроки вышли на первый план, чтобы заполнить вакуум власти в этом регионе, который великие державы всегда хотели подчинить себе с прошлого, и начали проводить свою политику в соответствии с этим регионом. Такие державы, как Турция, Россия, США, Китай и т. д. пытались получить

влияние в регионе своей политической, военной, экономической и культурной политикой и конкурировали друг с другом. В этом контексте основной целью нашей работы является анализ политики великих держав на Балканах.

Ключевые слова. Балканы, великие державы, стратегический регион, поле боя, этнические конфликты.

ULFAR MAMMADLI
Doctoral student of the Department of New and Modern History of European and American countries of Baku State University

THE POLICY OF THE GREAT POWERS IN THE BALKANS AFTER THE BREAKUP OF YUGOSLAVIA

After the Cold War, the collapse of the Federal Republic of Yugoslavia created a power vacuum in the Balkans. This feature of the Balkan geography, which is notable for its ethnic diversity, which can be seen as wealth from one point of view, is the main source of problems in the region today. The transition of the Balkans into a life full of crises in the new era has caused controversy and made it a geography open to influence. Many actors came to the fore to fill the power vacuum in this region, which the great powers always wanted to subjugate since the past, and began to implement their policies according to this region. Powers such as Turkey, Russia, USA, China, etc. tried to gain influence in the region with their political, military, economic and cultural policies and competed with each other. In this context, the main goal of our work is to analyze the policy of the great powers in the Balkans.

Keywords. Balkans, great powers, strategic region, duel ground, ethnic conflicts.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 25 aprel 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 03 may 2024-cü il.
Rəyçilər: t.ü.f.d. Sevinc Ruintən, t.ü.f.d. Məmmədağa Baxışov.